# Xocalıya qayıdış sərgisi

Hələ körpəlikdən təqvimə diqqət edərək hər kəs qara və qırmızı rənglə qeyd olunmuş rəqəmləri, tarixi günləri arayıb-axtarar, onların







mənalarını öyrənməyə tələsərdi: İllər keçdikcə məktəbdə öyrənərdik ki, bayramlar qırmızı, matəmlər isə tünd qara rənglə işarə olunur. Tarixi xronologiyaya istinadən əlamətdar günlər yaddaşlara köçərdi.

Xocalı faciəsi tarixin qan yaddaşıdır. Təqvim tarixində faciələr məhz al-qırmızı rənglə çulğalaşmış qara rənglə qeyd olunur. Bu qırmızı rəng isə qan rəngini ifadə edir. 30 ilə yaxın biz Xocalı faciəsini məhz qara-qırmızı rəngin vəhdəti halında qeyd etdik. Bu faciə heç unudulmadı. 2020-ci ilin sentyabrında başlanan Vətən Müharibəsində 44 gün ərzində torpaqlarımız yağı tapdağından azad olundu...

Artıq 26 fevralda faciəli şəkildə yağmalanaraq işğal olunan Xocalı azaddır. İndi Xocalı sakinləri öz doğma məkanlarına qayıtmağa hazırlaşırlar. Xocalı şəhəri ölkə rəhbərliyinin diqqət mərkəzindədir, bu şəhər abadlıq işləri aparılaraq daha da gözəl və müasir bir şəhərə çevriləcəkdir.

Xocalı faciəsinin anım günü ilə əlaqədar ölkənin hər tərəfində tədbirlər keçirilir. Xətai rayonunda keçirilən tədbir isə daha çox diqqəti cəlb edirdi. Tədbir "Xocalıya qayıdış" rəsm sərgisi idi. Tədbir başlamazdan əvvəl iştirakçılar Xətai rayon sənət mərkəzinin qarşısındakı Xocalı abidəsinin qarşısına gül dəstələri qoyaraq faciə qəhrəmanlarının ruhuna dualar oxudular. Sonra sənət mərkəzində məktəblilərin ən yaxşı, seçilmiş rəsmlərinə baxış keçirildi.

Ən maraqlı rəsm müəlliflərinə sertifikatlar verildi. Çıxış edənlər tarixin qan yaddaşı və şəhadət yolçuları haqqında danışdılar.

Tədbirdə Xətai Rayon İcra Hakimiyyətinin nümayəndələri, Xocalı sakinləri, müəllimlər, şəhid ailələri, qazilər, jurnalistlər və başqa iş adamları iştirak etmişlər.

**BİBİXANIM.**

# Qan yaddaşı

22 fevral 2024-cü il tarixində rayon tarix-diyarşünaslıq muzeyi və Heydər Əliyev Mərkəzinin birgə təşkilatçılığı ilə "XX əsrin Xocalı fəryadı" adlı tədbir həyata keçirilib. Qəbələ Mədəniyyət mərkəzi, Dövlət Rəsm Qalereyası və müxtəlif təşkilatların nümayəndələri iştirak edən tədbirdə ilk olaraq Azərbaycanın ərazi bütövlüyü uğrunda və Xocalıda şəhid olmuş vətən övladlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Muzeyin direktoru Bəxtiyar Vəliyev tədbiri giriş sözü ilə açaraq 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələrinin beynəlxalq hüquq normalarına zidd olaraq Xocalını işğal etməsi, yerli əhaliyə qarşı törədilmiş xüsusi amansızlıq və qəddarlıqlar,girovlara tətbiq edilmiş ağır işgəncələr və ən başlıcası ulu öndər Heydər Əliyev tərəfindən bu faciəyə hüquqi qiymətin verilməsi ilə bağlı çıxış etmişdir.Natiq vurğulamışdır ki, xalqımız hər il Xocalı soyqırımı qurbanlarının xatirəsini



ehtiramla yad edir və anım günü Azərbaycan xalqının milli birliyinin, vəhdətinin simvoluna çevrilib. Çıxış edən digər iştirakçılar bu mövzuda xalqımızın xüsusi həssaslıq nümayiş etdirməsi, dövlət tərəfindən digər məcburi köçkünlər kimi Xocalı sakinlərinə göstərilən qayğı və diqqətdən söz açmışdır.

Sonda tarix-diyarşünaslıq muzeyinin fondunda mühafizə olunan Xocalı faciəsini əks etdirən materiallar əsasında sərgiyə baxış təşkil olunub.

**İlhamə SEYİDOVA.**

## Vətənpərvərlik

# Unutqanlıq bizə yaddır

Vətən uğrunda ölən varsa, vətəndir. Vətən qayasında mamır olub bitən varsa, vətəndir. Dar günündə ölkəsindən uzaqlarda yaşamasına rəğmən xalqına gərəkli olduğunu düşünən oğullar öz torpağına dönərsə, o torpaq vətəndir. Öz sağlamlığını, canını belə göz qırpmadan o torpağın qorunması üçün fəda edən varsa, o torpaq, o yurd vətəndir. Vətəni vətən edən isə onun vətən və torpaq aşiqi olan övladlarıdır. O övladlar ki, əsil vətəndaş adının layiqliləridir.

Məhz Səmədov Vüqar Vaqid oğlu kimi...

Vüqar Səmədov 1992-ci ildə Qəbələ rayonunun Yengicə kəndində doğulmuşdur. Yengicə kənd məktəbində oxumuşdur.

2010-cu ildə həqiqi hərbi xidmətə çağırılmışdır. O, Sülhməramlı Qüvvələrdə xidmət etmişdir. Hərbi xidmətini başa vurduqdan sonra bir müddət tikinti işlərində çalışmışdır.



2017-ci ildə Moskva şəhərinə getmiş, əmək fəaliyyətini davam etdirmişdir.

2020-ci ilin sentyabrında başlanan müharibə onu narahat etdiyinə görə vətənə qayıtmış və döyüş bölgəsinə yollanmışdır. 2020-ci il oktyabrın 5-dən döyüşlərə qatılan Vüqar Səmədov Fizuli, Qubadlı, Zəngilan Şuşa uğrunda gedən döyüşlərdə igidliklə döyüşmüşdür. O, Zəfər çalacağına inanırdı, qələbə inamı və inadı ilə döyüşürdü.

Lakin mənfur düşmən gülləsi ona bu qələbəni görməyi qismət etmədi. O, noyabrın 3-də Şuşa uğrunda gedən döyüşlərdə qəhrəmancasına şəhid olmuşdur.

Ölümündən sonra Prezident İlham Əliyevin sərancamı ilə "Vətən uğrunda", "Cəsur döyüşçü", "Qubadlının azad olunmasına görə", "Döyüşlərdə fərqləndiyinə görə" medalları ilə təltif olunmuşdur.

Vətənə, xalqa bağlı olan şəhidimizi hər zaman xalq ehtiramla, yad edir. Fevralın 20-də, şəhidimizin doğum günündə şəhidsevərlər, vətənpərvər insanlar ailəsi ilə birgə onun məzarını ziyarət etmiş, ruhuna dualar oxumuşlar.Şəhid məzarları bizim ziyarətgahımızdır.Əsrlər ötsə belə Vətən tarixini yenidən yazanlar həmişə yaddaşlarda, ürəklərdə yaşayacaqlar.

# Bahar ömürlü



Çox gənc idi, lakin düşüncə tərzi ilə yaşından çox böyük görünürdü. Sifətində bir məsumluq vardı. Ancaq qəlbi daha böyük arzularla dolu idi. Ən ümdə arzusu isə Vətən torpaqlarının düşmən işğalından azad olunması idi.

Şöhrət İkram oğlu Mikayılov 2002-ci ildə, 26 fevralda rayonumuzun Zərgərli kəndində dünyaya göz açmışdır. O, 2008 - 2019-cu illərdə Qəbələ rayon Nic qəsəbəsindəki 4 saylı tam orta məktəbdə təhsil almışdır. 2020-ci ildə həqiqi hərbi xidmətə çağırılmışdır.

Azərbaycan ordusunun gənc və qəhrəman oğlu Şöhrət Hadrutun və Qubadlının azad olunmasında qəhrəmanlıqla döyüşmüşdür.

Şöhrət Mikayılov oktyabrın 31-də Qubadlı uğrunda gedən döyüşlərdə şəhadətə qovuşmuşdur. Cəmi 18 yaşı olan bu igidimizin torpaqlarımızın azad olunmasını görmək arzusu ürəyində qaldı. Ancaq ruhu şaddır. Çünki 44 günlük müharibədə ordumuz qələbə çaldı.

Şöhrət kimi oğullar daim qəlblərdə, yaddaşlarda yaşayacaqlar.

**Şəhla XƏLİLQIZI,**
**Qəbələ.**

# Ana Dili Günü

***Bu dil - bizim ruhumuz, eşqimiz, canımızdır,***
***Bu dil - bir-birimizlə əhdi-peymanımızdır.***
***Bu dil tanıtmış bizə bu dünyada hər şeyi,***
***Bu dil əcdadımızın bizə miras verdiyi***
***Qiymətli xəzinədir... onu gözlərimiztək***
***Qoruyub, nəsillərəbiz də hədiyyə verək.***

**B. Vahabzadə.**




Fevralın 21-i bütün dünyada Beynəlxalq Ana Dili Günü kimi qeyd olunur. 1999-cu ilin noyabrında Banqladeş səfirinin təşəbbüsü ilə UNESCO tərəfindən fevralın 21-i Beynəlxalq Ana Dili Günü elan edilib.

Beynəlxalq Ana Dili Günü 1952-ci il fevralın 21-də Banqladeşin Benqal şəhərində öz ana dilinin rəsmi dil olması uğrunda mübarizə aparan 4 tələbənin öldürülməsi hadisəsini bir daha insanların xatirəsində canlandırır.

Dil hər bir millətin maddi və mənəvi irsini qoruyan və inkişaf etdirən ən mühüm və ən güclü vasitədir. Hər bir insan öz ana dilini yaxşı bilməli və onu qorumalıdır.

# Dilimizi qoruyaq

Qəbələ rayon ümumtəhsil müəssisələrində rayon təhsil sektorunun nümayəndələrinin, məktəbin müəllim və şagirdlərinin iştirakı ilə 21 fevral - Beynəlxalq Ana Dili Gününə həsr edilmiş silsilə tədbirlər keçirilmişdir. Tədbirlərdə çıxış edənlər ana dilimizin keçdiyi inkişaf yolu, dilimizə göstərilən dövlət qayğısından bəhs etməklə yanaşı dilimizin tarixin müxtəlif dövrlərində ərəb-fars dillərinin təsirinə məruz qalması, Sovet hakimiyyəti illərində tariximizə, eləcə də dilimizə qarşı yeridilən yadlaşdırma siyasətindən söz açmışlar.




Bildirilmişdir ki, Azərbaycan dilinin qorunmasında və inkişafında Ulu Öndər Heydər Əliyevin rolu əvəzsizdir. Ümummilli liderin layiqli davamçısı, ölkə başçısı cənab İlham Əliyevin həyata keçirdiyi ardıcıl tədbirlər, qəbul etdiyi qərarlar doğma ana dilimizin bugünkü inkişaf səviyyəsinə çatmasında olduqca mühüm əhəmiyyət kəsb edir. Tədbirdə məktəblilərin ifasında ana dilimizin gözəlliyini tərənnüm edən şeirlər səslənmiş, mahnılar oxunmuş, ədəbi-bədii kompozisiya təqdim edilmişdir.